***Azərbaycan Respublikası***
***Maliyyə Nazirliyinin***
*"06" dekabr 2011-ci il tarixli*
*Q-01 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrəsığorta haqlarının məbləği

**Bakı 2011**

Bu Qayda "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 sentyabr tarixli 500 nömrəli Fərmanının 3.1.7-ci yarımbəndinin icrası məqsədiləhazırlanmışdır və daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığorta haqlarının məbləğinin müəyyən edilməsi ilə bağlı məsələləri tənzimləyir.

## 1. Sığorta haqqının məbləğinin müəyyənləşdirilməsi qaydası

1.1. Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə sığorta haqqının məbləği iqtisadi fəaliyyət növlərindən asılı olaraq, bu Qaydanın 1.2.1-ci yarımbəndi nəzərə alınmaqla 1.2.2-ci yarımbəndindənəzərdə tutulan risk qrupları üzrə (Cədvəl) aşağıdakı kimi müəyyən olunur:

| **Risk qrupu** | **Sığorta haqqı** (*manat*) |
|---|---|
| 1 | 30 |
| 2 | 60 |
| 3 | 90 |
| 4 | 120 |

1.2. Sığorta haqlarının məbləğinin müəyyən edilməsi məqsədi ilə sığorta riskinin qruplarıaşağıdakı qaydada müəyyənləşdirilir:

1.2.1. inzibati binalar onların mülkiyyətçisinin və ya üzərindəfaktiki sahibliyə malik olan digər şəxsin həyata keçirdiyi iqtisadi fəaliyyətin növündən asılı olmayaraq 1-ci risk qrupuna aid edilir.

1.2.2. Bu Qaydanın 1.2.1-ci bəndi nəzərə alınmaqla, daşınmaz əmlakın risk qrupu onun mülkiyyətçisinin və ya üzərindəfaktiki sahibliyi həyata keçirən digər şəxsin həminəmlakda təyinatı üzrə həyata keçirdiyi iqtisadi fəaliyyətin aid olduğu, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2008-ci il 14 noyabr tarixli qərarı və Azərbaycan RespublikasıStandartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 2008-ci il 22 dekabr tarixli əmri ilə təsdiq edilmiş "İqtisadi Fəaliyyət Növləri Təsnifatının 3-cü versiyasına Əlavə"də nəzərdətutulan müvafiq iqtisadi fəaliyyət növləri üzrəaşağıdakı kimi müəyyən edilir:

| **Risk qrupu** | **İqtisadi fəaliyyət növlərinin bölgüsü** | |
|---|---|---|
| | *Seksiya kodu* | *Seksiyanın adı* |
| 1 | K Seksiyası | Maliyyə və siğorta fəaliyyəti |
| | O Seksiyası | Dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat |
| | U Seksiyası | Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti |
| | L Seksiyası | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar |
| 2 | N Seksiyası | İnzibati və yardımçı xidmətlərin göstərilməsi |
| | P Seksiyası | Təhsil |
| | M Seksiyası | Peşə, elmi və texniki fəaliyyət |

| | | |
|---|---|---|
| | J Seksiyası | İnformasiya və rabitə |
| | S Seksiyası | Digər sahələrdə xidmətlərin göstərilməsi |
| | Q Seksiyası | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi |
| | R Seksiyası | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət |
| 3 | A Seksiyası | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq |
| | H Seksiyası | Nəqliyyat və anbar təsərrüfatı |
| | G Seksiyası | Topdan və pərakəndə ticarət, avtomobillərin və motosikletlərin təmiri |
| | E Seksiyası | Su təchizatı; çirkli suların və tullantıların təmizlənməsi |
| 4 | D Seksiyası | Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat |
| | C Seksiyası | Emal sənayesi |
| | İ Seksiyası | Yaşayışın təşkili və ictimai iaşə |
| | B Seksiyası | Mədənçıxarma sənayesi |
| | F Seksiyası | Tikinti |